# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 152** **Bakı şəhəri, 27 may 2021-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar üçün kvota tətbiq edilməsi Qaydası"nın və "Kvota şamil edilməyən müəssisələrin Siyahısı"nın təsdiq edilməsi haqqında" 2005-ci il 22 noyabr tarixli 213 nömrəli və "Sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən maliyyələşdirilməsi Qaydası"nın təsdiq edilməsi və "Sığortaolunanların əməkhaqlarının maliyyələşdirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 616 nömrəli Qərarının ləğv edilməsi barədə" 2020-ci il 8 iyul tarixli 244 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında**

"Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanu-nunda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 1 fevral tarixli 260-VIQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 22 noyabr tarixli 213 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 11, maddə 1073; 2007, № 12, maddə 1344; 2008, № 8, maddə 787; 2011, № 5, maddə 449; 2016, № 9, maddə 1585; 2019, № 7, maddə 1320; 2020, № 11, maddə 1402; 2021, № 2, maddə 209; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 5 mart tarixli 53 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar üçün kvota tətbiq edilməsi Qaydası"nın 1.3-cü bəndinin onuncu abzasında "ailələri" sözü "ailəsinin üzvləri" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 8 iyul tarixli 244 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 974; 2021, № 2, maddə 209) ilə təsdiq edilmiş "Sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən maliyyələşdirilməsi Qaydası"nın 1.7-ci bəndinə "uşaqlara," sözündən sonra "şəhid ailəsinin üzvlərinə," sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti 2021.- 30 may.- S.15.